KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# KÜRD DÎPLOMAT

www. Diplomata-kurdi.com

№ 5 (249) 3-9 fevral, Şûbat, sal 2014
Ji meha şûbatê sala 2003-a tê weşandin
Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî
Qiyməti: Hêjaye: 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu


Səh. 2
**İlham Əliyev Davosda keçirilən "Cənubi Qafqaz və Mərkəzi Asiya: qlobal iqtisadiyyata yol" mövzusunda qəbulda iştirak etmişdir**


Səh. 8
**Hevdîtina Barzanî û Obama hate paşxistin**


Səh. 9
**Barzanî Rewşa Dawî ya Peymana Petrolê, Eşkere Kir**


Səh.12
**Hükümetin seçim hesabı yapması süreci bitirir**


Səh.8
**Kerkukî: Helepçe, Bitwên, Soran û Akrê ji sala 1999 ve Parêzgehe**


Səh.4
**LAÇINIM DEYƏN DİLİMİZİN BİRİ DƏ SUSDU!!!**


Səh.4
**LAÇINIM, LAÇINIM, VƏTƏNİM MƏNİM**

**Daşkəsən rayonunun ucqar dağ kəndi Qabaqtəpədə səyyar görüş keçirildi** Səh. 3

**Письмо Оджалана к президенту Курдистана может касаться Рожава** Səh. 15

**Ensarigolu serdana Komeleya Ciwanên Kurdistanê kir** Səh. 9

**Hikûmeta AKPê li daxwaza Ocalan a derxistina 'qanûna aştiyê' sar dinêre** Səh. 10

**Türkiyə kürdlərlə 25 illik müqavilə imzaladı** Səh. 3

**Pêvajoya Cenêv-2 û Rewşa Dawî Ya Sûriyê, Li Munîhê Hat Nirxandin** Səh. 11


Səh. 3
**KÜRD ƏDİBLƏRİ HAQQINDA ARAŞDIRMALAR**


Səh. 6
**1905-06-cı illərdə erməni-müsəlman davasında kürd xalqının rolu**



Səh. 13
**SIRADAKİ YİRMİ YENİ KANTON!**


Səh.7
**KURDÊN SEXTEKAR ÊN TEWANDÎRA**

# İlham Əliyev Davosda keçirilən "Cənubi Qafqaz və Mərkəzi Asiya: qlobal iqtisadiyyata yol" mövzusunda qəbulda iştirak etmişdir

Davosda "Cənubi Qafqaz və Mərkəzi Asiya: qlobal iqtisadiyyata yol" mövzusunda qəbul keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbulda iştirak etmişdir.

Tədbiri açan Dünya İqtisadi Forumunun icraçı sədri Klaus ŞVAB dedi:

- Cənab Prezident İlham Əliyev.

**Komissar Ottinger.**

**Xanımlar və cənablar.**

Bu gün Cənubi Qafqaz və Mərkəzi Asiyaya həsr olunmuş xüsusi axşam təşkil edilmişdir. Sizin Davosda şəxsi iştirakınız sayəsində regiona maraq artır. Bugünkü görüşümüz zamanı Sizin baxışlarınız və siyasətinizlə bağlı ətraflı məlumat aldım. Açıqlamaq istərdim ki, bir ay bundan əvvəl Azərbaycanda olmuşam və hazırda ölkənizin inkişafı ilə bağlı bir sıra ssenarilər üzərində çalışırıq. Bunlar artıq Sizə təqdim olunub. Lakin işlər hələ də davam edir və avqust ayında biz yenidən Sizinlə görüşüb əlavə məlumatlar təqdim edəcəyik. Yekun təqdimat bu ilin sonunda və ya gələn ilin əvvəlində baş tutacaqdır. Müxtəlif ssenarilər nəzərdən keçirilir. Təbii ki, biz əminik, ən müsbət ssenari reallaşacaqdır. Bununla da Sizə xoş axşam və fəal müzakirə arzu edirəm.

**Qəbulda çıxış edən Prezident İlham ƏLİYEV dedi:**

- Sağ olun. Əvvəlcə Cənubi Qafqaz və Mərkəzi Asiyaya həsr edilmiş bu tədbirin təşkilatçılığına görə professor Şvaba minnətdarlığımı bildirirəm. Bizim region hazırda dünyanın diqqətini cəlb edir. Bu səhər təşkil edilmiş paneldə regional əməkdaşlıq mövzusu müzakirə olundu. Bundan əlavə, ötən ilin aprel ayında Bakıda təşkil olunmuş Davos Forumu da həmin mövzuya həsr edilmişdi. Həqiqətən, regionumuz dinamik inkişaf edir və burada iqtisadi əməkdaşlıq üçün böyük potensial vardır. Azərbaycan öz növbəsində əməkdaşlığın gücləndirilməsi, Cənubi Qafqaz və Mərkəzi Asiyanın inteqrasiyası üçün vacib rol oynayır. Deyə bilərəm ki, ölkələrimizi bir araya gətirmək istiqamətində ilk təşəbbüsü Azərbaycan göstərib. Bu da enerji siyasətimizin başlanğıcı ilə bağlıdır.

Biz geniş boru kəmərləri şəbəkəsi vasitəsilə Xəzər, Qara və Aralıq dənizlərini birləşdirməyə müvəffəq olduq. Bu gün Azərbaycan yalnız enerji resurslarının təchizatçısı deyil, həm də tranzit ölkədir. Mərkəzi Asiya dövlətləri öz təbii sərvətlərini bizim infrastruktur vasitəsilə nəql edir. Bu layihə həm istehsalçı, həm istehlakçı, həm də tranzit ölkələr üçün



faydalı şərait yaradıb. Bu layihə tərəfimizdən icra edilən yeni bir layihənin başlanğıcı olub. Mən Türkiyəni və Avropanı əhatə edəcək boru kəməri, həmçinin Avropanın ən iri infrastrukturu hesab olunan "Şahdəniz-2" layihəsini nəzərdə tuturam. Ötən ilin dekabrında 25 milyard dollar dəyərində olan "XXI əsrin müqaviləsi" adlandırdığımız sənədi imzaladıq. Bu nailiyyət göstərir ki, qarşılıqlı dəstək və marağa əsaslanan geniş və səmimi əməkdaşlıq olduğu halda uğurlu nəticələr əldə edilir.

Bu gün biz nəqliyyat şəbəkəsinin yaradılması istiqamətində Mərkəzi Asiya dövlətləri ilə birgə çalışırıq. Biz, eyni zamanda, Mərkəzi Asiyanı Azərbaycan vasitəsilə Avropaya birləşdirəcək mühüm dəmir yolu layihəsi üzərində çalışırıq. Əslində bu, Çindən Böyük Britaniyaya qədər uzanan yeni "İpək Yolu"dur və ümid edirəm ki, artıq gələn il istifadəyə veriləcəkdir. Bunların hamısı regional əməkdaşlığın müsbət əlamətləridir.

Təbii ki, siyasət sahəsi də mühüm rol oynayır. Region dövlətləri vaxtilə - 22 il əvvəl vahid bir ölkənin tərkib hissəsi olmuşdur. Bizim tarixən əlaqələrimiz vardır, ancaq əminəm ki, hər bir ölkə müstəqilliyinin bəhrəsini görür. Biz təkcə azadlığa qovuşmamışıq. Biz sistemi dəyişmişik. Ölkələrimizin nailiyyətləri bazar iqtisadiyyatının və müstəqil siyasi inkişafın üstünlüklərini aydın nümayiş etdirir. Məsələn, 22 il əvvəl özəl sektorun ümumi daxili məhsulumuzda payı sıfır faiz idisə, bu gün bu göstərici 85 faizə bərabərdir.

Siyasi və iqtisadi transformasiya və sərmayələrin cəlb edilməsi istiqamətində aparılan siyasət uğurlu olub. Bu gün artıq Azərbaycan xarici ölkələrə sərmayə qoyur. Bunların hamısı olduqca qısa zamanda baş verib. Bu gün bizim regionumuz nəhəng potensiala, dinamik inkişafa və böyük insan kapitalına malik məkan hesab olunur. Bu məsələdə böyük inkişaf potensialı vardır və bizim göstəricilər dünya üzrə orta göstəricilərdən üstündür.

Azərbaycana gəldikdə, biz bu gün diqqətimizi iqtisadiyyatımızın şaxələndirilməsinə yönəldirik. Ötən il qeyri-neft sektorunda ümumi daxili məhsulun artımı 10 faizə qədər olub və ümid edirəm ki, növbəti 10 il ərzində eyni inkişaf tempi təmin ediləcəkdir.

Onu da qeyd etməliyəm ki, Azərbaycan sürətlə inkişaf edən iqtisadiyyata malikdir. Son 10 ildə iqtisadiyyatımız 3 dəfə artıb və iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə Davos İqtisadi Forumu Azərbaycanı dünyada 39–cu yerə layiq görüb. Bu, əsasən islahatların və təbii sərvətlərimizin düzgün istifadə edilməsi, insan kapitalına və infrastruktura yenidən sərmayələrin qoyulması və biznes imkanlarının yaxşılaşdırılması sayəsində mümkün olub. Bir daha regionumuza göstərilən maraq və dəstəyə görə professor Şvaba və Davos İqtisadi Forumuna təşəkkürümü bildirirəm.

Bu, mənim Davosa səkkizinci səfərimdir və bu, Azərbaycanın təbliği və təmasların qurulmasında çox faydalı olub. Ötən illər ərzində qurduğumuz təmaslar bu gün kosmik sənayenin, informasiya-kommunikasiya texnologiyalarının və indiyədək heç ağlımıza gətirmədiyimiz sahələrin inkişafına xidmət edib.

Bir daha Sizə təşəkkür edirəm və bu mövzunun bundan sonra da diqqət mərkəzində olacağına ümidvaram.

## İlham Əliyev Fransanın xarici işlər naziri Loran Fabius ilə görüşmüşdür

Prezident İlham Əliyev Davosda Fransanın xarici işlər naziri Loran Fabius ilə




görüşmüşdür. Loran Fabius Fransa Prezidenti Fransua Ollandın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğu vurğulandı. Fransa şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi bildirildi, qarşılıqlı sərmayələrin əhəmiyyətindən danışıldı. Qarşılıqlı səfərlərin ölkələrimiz arasında münasibətlərin inkişafına mühüm töhfə verdiyi bildirildi. Əlaqələrimizin genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu qeyd edilən görüşdə mədəniyyət sahəsində yüksək səviyyədə əməkdaşlığın aparıldığı vurğulandı.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı Fransua Ollandın salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Fransa Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xalid Usman Qayserin etimadnaməsini qəbul etmişdir. Səfir Xalid Usman Qayser fəxri qarovul dəstəsinin qarşısından keçdi. Xalid Usman Qayser etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı səfirin Azərbaycandakı diplomatik fəaliyyəti dövründə bu münasibətlərin daha da möhkəmləndiriləcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında siyasi əlaqələrin uğurla inkişaf etdiyini dedi.

Əlaqələrimizin iqtisadi, mədəni, humanitar və digər sahələrdə də genişləndiriləcəyinə ümidvar olduğunu bildirən Prezident İlham Əliyev bunun regional əməkdaşlıq baxımından da önəmini qeyd etdi. Dövlətimizin başçısı ölkələrimizin BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsini yüksək dəyərləndirdi.

## İlham Əliyev Pakistanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

Səfir Xalid Usman Qayser Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarını və ən xoş arzularını Prezident İlham Əliyevə çatdırdı. Diplomat qeyd etdi ki, əsası dünya şöhrətli siyasi və dövlət xadimi Heydər



Əliyev tərəfindən qoyulan Azərbaycan-Pakistan əlaqələrinin daha da möhkəmləndirilməsində səylərini əsirgəməyəcəkdir. Səfir Heydər Əliyev Fondu tərəfindən ölkəsində həyata keçirilən humanitar layihələrin əhəmiyyətini minnətdarlıqla vurğuladı. Xalid Usman Qayser Pakistanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyəcəyini bildirdi.

Görüşdə ölkələrimiz arasında ələqələrin sənaye, hərbi-texniki əməkdaşlıq, müdafiə, əczaçılıq, informasiya-kommunikasiya texnologiyaları, qarşılıqlı sərmayə qoyuluşu və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı İlham Əliyev Prezident Məmnun Hüseyn və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi. ***president.az***

**"Diplomat" qəzeti 2003-cü ilin fevralın 2-də ilk nəşrinə başlamışdır. Bu gün qəzet 11 yaşına qədəm qoyur və 249-cu sayı dərc olunur. Bu illər ərzində qəzetimizn ərsəyə çatmasında, inkişafında əməyi olan bütün dostlarımıza təşəkkür edirik və redaksiya adından yaradıcı heyətə və yaxından, uzaqdan bizimlə əməkdaşlıq edənlərə öz minnətdarlığımızı bildiririk!**



DIPLOMAT

№ 01(01) FEVRAL, ŞUBAT SALA 2003-a İctimai-siyasi qəzet Hejmar 01

"Azərbaycan burada yaşayan bütün xalqların doğma vətənidir. Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, respublikanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıca sərvəti qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər çox zəngin olar." Heydər Əliyev

Baş redaktordan

Hörmətli oxucular! Bu gündən etibarən respublikamızın mətbuat aləminə "Diplomat" qəzeti qədəm qoyur. Qəzet üç dildə - azərbaycan, kürd və rus dillərində işıq üzü görəcəkdir.

Səhifə 2-də

El adamı, dərdli şair

Mən şair Nəriman Əyyubu son illər tanımışam. Mənə təqdim etdiyi "Ana fəryadı" (1995), "Sağalmaz yara" (1997), "Vedinin yanı dağlar, arxamca baxıb ağlar" (1998), "Sənsiz" (1999), "Vedili dünyam" (2000), "Ana" (2001), kitabından məlum olur ki, çox cavan yaşlarından yazırmış.

Səhifə 5-də

AZƏRBAYCAN ÇOXMİLLƏTLİ AİLƏDİR

Müsahibim tarix elmləri doktoru, professor Qəmərşah Cavadovdur.

1990-92-ci illəri yada salım. Respublikadakı ictimai-siyasi həyatı göz önünə gətirsək, milli münasibətlərin də qaynadığını aydın görürük.

Azərbaycanda özünün düşmənçilik toxumunu səpənlər təkcə onun ərazisinin işğalı ilə kifayətlənmir, onun tarixən formalaşmış xalqa, daha sonra Azərbaycan millətinə çevrilməsində öz yeri olan ayrı-ayrı etnosların bir-birinə qarşı çevirmək, bununla da xalqımızın birliyini pozmaq üçün hər şeydən, istifadə etməyə cəhd göstərirdilər.

Səhifə 2-də

İraq Kürdüstanında kütləvi qətl

5000 ölü, 7000 yaralı

Hələ İran-İraq müharibəsi zamanı irqçi Baas partiyasının rəhbəri, İraq prezidenti, diktator Səddam Hüseyn I Dünya müharibəsindən sonra BMT-nın qadağan etdiyi "Sənf", "Tabun", "Sinir" adlı kütləvi qırğın silahlarından istifadə etmişdir.

Səhifə 4-də

40 milyonluq dünya kürdlərinə müraciət

Bəşəri azadlıq yolunda böyük qurbanlar vermiş kürd xalqı!

Səhifə 6-da

Kurd kî ne, Kurdî û Kurdistan çi ne?

Səhifə 3-də

Национальная женская одежда

Предлагаемый материал публикуется из книги "Материальная культура курдов XIX - первой половины XX века" известного курдоведа Татьяны Федоровны Аристовой.

Səhifə 8-də

## Kürdlər öz muxtariyyətlərini elan etdilər

Suriyadakı kürdlər Cizrə əyalətində özlərinin Demokratik Muxtar Respublikalarını yaradıblar. "Axar.az" xəbər verir ki, bu barədə informasiyanı "Fırat" agentliyi yayıb. Agentlik özünü müstəqil elan edən bölgənin rəsmi üç dilin-in olacağın bildirib.



Bununla bərabər burada 22 nazirliyin yaradıldığı da qeyd olunub.

İdarəetmədə maliyyə, iqtisadiyyat və ticarət nazirlərinin qadın olduğu deyilib. Agentlik bölgəni seçilmiş prezidentin idarə edəcəyini yazıb. Qeyd edək ki, bir müddət öncə "Qolos Rosiyi" radiosunda bölgənin özünü müstəqil elan etdiyi haqqında xəbərlər yaymışdı.

## PKK liderindən şok açıqlama

"Cavab çox sadədir. Ərdoğandan canlarını qurtarmaq istəyirlər". "Axar.az" xəbər verir ki, bu açıqlama ilə PKK terror təşkilatının liderlərindən biri olan Cemal Bayık çıxış edib. O, bunun üçün ittifaq qurulduğunu da deyib. "Cavab çox sadədir. Ərdoğandan canlarını qurtarmaq istəyirlər. Bəs bunu kiminlə etmək lazımdır? "Camaat"(fətullahçılar) ilə. Onun arxasında kim var? Təbii ki ABŞ. Ancaq Ərdoğan hökumətini korrupsiya ilə vurmaq olardı. Bəs rüşvət yoxdurmu? Var. Ona görə buradan vurdular". Qeyd edək ki, Cemal Bayık PKK terror təşkilatının beş qurucusundan bir hesab edilir. "Cuma" kod adı ilə məşhurdur. Xüsusiylə Türkiyədə müxtəlif aksiyaların törədilməsində fəal iştirak edib. O, Suriya kəşfiyyat idarəsi ilə yaxından əməkdaşlıq edib və burada müxtəlif döyüşçülər hazırlanmasında iştirakı ilə seçilib.



# Türkiyə Kürdüstanla 25 illik müqavilə imzaladı

## *Rusiyadan 450, İrandan 500, Azərbaycandan 400 dollar*

Türkiyəyə Şimali İraq Regional Kürd Rəhbərliyinin əlində olan təbii qazla əlaqədar yeni sevindirici xəbər gəlib. Kürd Rəhbərliyinə yaxın iş çevrələrinin xəbərinə görə, Şimali İraqdan Türkiyəyə gələcək təbii qazla əlaqədar 20-25 illik dövrü əhatə edəcək "sabit qiymətə" başa gələcək alğı-satqı kontraktı imzalanıb. Bu mərhələdə tərəflər arasındakı təbii qazla bağlı razılaşdırılan qiymət açıqlanmır. Ancaq qiymətin hər min kub metr təbii qaz üçün 250 dollar olacağı gözlənilir.



**20 milyard kub metr**

Kürd bölgəsində çoxlu təbii qaz ehtiyatı var. Türkiyənin illik təbii qaz istehlakı 45-50 milyard kub metrdir. Şimali İraqda çıxarılacaq təbii qaz 2017-ci ildən etibarən Türkiyəyə ixrac ediləcək. 4 milyard kub metr ilə başlayacaq ixracatın zaman içində 20 milyard kub metrə qədər çatdırılması nəzərdə tutulur.

**Sabit qiymətlərlə kontrakt**

Əldə edilən məlumatlara görə, Şimali İraqdan Türkiyəyə gələcək təbii qazla əlaqədar 20-25 illik dövrü əhatə edəcək "sabit qiymətə" razılaşdırılacaq təbii qaz alğı-satqı kontraktına görə qiymət kontrakt dövründə dəyişməyəcək. Şimali İraqdan idxal ediləcək qazın qiyməti rəqib ölkələrdən (Rusiya və İran kimi) alınan qazdan daha ucuz olacaq. Təbii qazın min kub metrinin təxminən 250 dollara alınacağı gözlənilir.

**Tankerlərlə neft**

Şimali İraq Regional Kürd Rəhbərliyi bir il yarımdır ki, tankerlərlə dünyaya neft satır. Gündə 20-30 min barellik neft ixracatı edir. İndiyə qədər 10 milyon barel neft satılıb. Bunun bazar dəyərinin təxminən 1 milyard dollar olduğu bildirilir. Bu daşıma işlərini Sinqapur mərkəzli "PowerTrans" (PauvəTrans) şirkəti həyata keçirir.

**İraqda neft çıxarmağın xərci 4.5 dollardır**

Məlumatlara görə, dünyada neft çıxarmağın ən ucuz olduğu ölkə İraqdır. İraqda neft çıxarmağın xərci 4.5 dollardır. 4.5 dolları əlaqədar neft şirkətləri alır. Geriyə qalan 90-95 dolların hamısı dövlətlərin hesabına gedir. Beynəlxalq Enerji Agentliyi (İEA) və Amerika Geologiya Təşkilatının məlumatlarına görə, İraqın sahib olduğu neft və təbii qaz ehtiyatı həddən artıqdır. Ehtiyatları Səudiyyə Ərəbistanındakından belə çox olduğu təxmin edilir. Buna görə də İraqın gələcəyi neft istehsalı tutumu və ixracat gücü həm dünya iqtisadiyyatı, həm də OPEC baxımından böyük əhəmiyyət daşıyır.

# Daşkəsən rayonunun ucqar dağ kəndi Qabaqtəpədə səyyar görüş keçirildi

Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının mütəmadi olaraq şəhər, qəsəbə və kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklərində sakinlərlə səyyar görüşlərin keçirilməsinə başlanılmışdır. Səyyar görüşlər Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı cənab Əhəd Abıyevin, RİHB Aparatının məsul işçilərinin, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilat, hüquq-mühafizə orqanlarının rəhbərlərinin və kənd sakinlərinin iştirakı ilə birgə demokratik şəraitdə davam etdirilir.

Qabaqtəpə İƏDÜN-də də belə görüşlərdən biri baş tutmuşdur. Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı cənab Əhəd Abıyev 4000-ə yaxın əhalisi olan Qabaqtəpə kəndində keçirdiy səyyar görüş zamanı dərin məzmunlu nitq söyləmiş, vətəndaşlarla açıq havada ölkəmizdə gedən böyük və sürətli inkişaf, quruculuq, abadlıq işlərindən, eləcə də rayonumuzda uzun illərdən bəri həllini gözləyən çətin olan problemlərdən danışmışdır. Cənab Başçı qeyd etmişdir ki, indi dünya şöhrətli Prezidentimiz cənab İlham Əliyevin apardığı iqtisadi-sosial siyasət nəticəsində ölkəmizdə bütün sahələr üzrə əlverişli mühit yaradılmışdır. İndi Azərbaycan kosmos ailəsinin üzvüdür. Dünyanın ən nüfuzlu təşkilatı olan BMT-nin Təhlükəsizlik Şurasına rəhbərlik edib. Həm də ölkə daxilində, həm də ölkəmizdən kənarda əldə olunan uğurlar beynəlxalq aləmdə razılıqla qarşılanır. Hər birinizə yaxşı məlum olan yol problemi, təbii qaz problemi bizi həmişə narahat edirdi. Bu gün sizin etimad göstərdiyiniz millət vəkili Rövşən Rzayevin bizə yaxından köməyi ilə problemlərimiz ardıcıllıqla həll olunmaqdadır. Özünüz canlı şahid olaraq görürsünüz ki, Xoşbulaq-Qabaqtəpə-Astaf avtomobil yolunun əsaslı təmiri uğurla davam etdirilir. Azərbaycanda güclü sahibkarlıq mühiti yaradılmışdır. Məhz ölkə Prezidentinin düşünülmüş, uzun illərə hesablanmış siyasətinin nəticəsidir ki,



ölkədə güclü transmilli korporasiyalar mövcuddur. Bu korporasiyalardan biri də ölkəmizdə və xaricdə uğurlu fəaliyyət göstərən "AKKORD" Şirkətlər qrupudur. Bu şirkətin rəhbərliyi ilə danışıqlardan sonra Xoşbulaq-Qabaqtəpə-Astaf avtomobil yolunun əsaslı təmiri öz müsbət həllini tapmışdır.

Yaxşı məlumdur ki, Daşkəsən rayonunda əlverişli iş mühiti 4-5 ay çəkir. İlin qalan aylarında iqlim şəraiti açıq havada bu cür işləri görməyə imkan vermir. Daşkəsəndə həlli böyük problemlərlə üzbəüz olan belə işlər məhz "AKKORD" Şirkətlər qrupu kimi dünyada məşhur olan şirkətin gücü daxində mümkün olubdur. Artıq 20 km-ə qədər əsaslı təmir olunmuş yol sizin istifadənizə verilibdir.

Ümumiyyətlə, bildirmək istəyirəm ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin hər zaman bütün regionlara olduğu kimi, Daşkəsənə və daşkəsənlilərə də böyük diqqət və qayğısı vardır. Hamımız bu qayğını görür, dünya şöhrətli Prezidentimizə dərin minnətdarlığımızı bildiririk.Onun şəxsində biz hər zaman düzgün yol göstərən, xeyirxahlığı təbliğ edən, dinclik, gələcək nəslin xoşbəxtliyi, firavanlığı naminə, bir sözlə, şərqə günəş kimi doğan Azərbaycanımızın şöhrətinin günbəgün artırılması naminə düşünən, fəaliyyət göstərən əvəzsiz siyasi lideri görürük. Bu gün hər birimiz şahid oluruq ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev iqtisadi kapitalı insan kapitalına yönəltmişdir. Bunu rayonumuzun timsalında daha əyani surətdə hiss edirik. Son illərdə Daşkəsən rayonunda 7 məktəb, 1 uşaq bağçası tikilmiş, neçə-neçə uşaq bağçası və ümumtəhsil məktəbi əsaslı təmir olunmuş, müasir avadanlıqlarla təchiz edilmişdir. Rayonumuzda hər 30 şagirdə 1 kompyuter düşür. Təhsilin keyfiyyətinin artırılması, uşaqların təlim-tərbiyəsinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Təhsilə diqqət və qayğı günbəgün artmaqdadır. Daşkəsən rayonunda da bunu əyani surətdə görürük. Rayonumuzda əgər 2012-ci ildə ali məktəblərə 27 nəfər, orta ixtisas məktəblərinə isə 12 nəfər qəbul olunmuşdusa, 20l3-cü ildə ölkənin müxtəlif ali məktəblərinə 43 nəfər, orta ixtisas məktəblərinə isə 26 nəfər qəbul olunmuşdur. Bu, göstərilən diqqət və qayğının nəticəsidir və inanırıq ki, bu uğurlarımız gələcəkdə davam etdiriləcək.

Bu il Daşkəsəndə daha 14 məktəbin tikintisi, ucqar dağ kəndlərinə gedən yolların əsaslı təmiri və tikintisi nəzərdə tutulmuşdur. Əmin ola bilərsiniz ki, möhtərəm Prezidentimizin ali diqqət və nəzarəti altında bu il də qeyd etdiyim böyük tikinti, quruculuq, abadlıq, yenidənqurma işləri davam etdiriləcəkdir.

Daşkəsənin xoş gələcəyi vardır. Səyyar görüşdə çıxış edən kənd sakinləri 4000-ə yaxın əhali adından danışaraq göstərilən bu müsbət işlərə görə möhtərəm cənab Prezidentimiz İlham Əliyevə öz dərin minnətdarlıqlarını, razılıqlarını bildirərək qeyd etdilər ki, indiyədək kəndimizdə mövcud problemlərin həllinə bu cür diqqət və qayğı görməmişdik. Bu qayğı bizi dünya şöhrətli Prezidentimizin ətrafında daha sıx birləşməyə ruhlandırır. Kənd sakinləri həmçinin onları narahat edən digər problemlərlə bağlı təkliflərini, istək və arzularını Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının diqqətinə çatdırdılar. Edilmiş təklif və müraciətlər yerindəcə müsbət həllini tapdı.

Səyyar görüşdə 10 nəfər gəncə Yeni Azərbaycan Partiyasının vəsiqələri təqdim edildi, 10 nəfər gənc isə Yeni Azərbaycan Partiyasının sıralarına qəbul olundu.

***dashkesen-ih.gov.az***



## LAÇINIM, LAÇINIM, VƏTƏNİM MƏNİM

Bəli, bu mısralar Məhəbbət Kazımovun heyat fəlsəfəsidir hansı ki, bu fəlsəfəni və bu fəlsəfi məktəbi bütün laçınlılar deyil, Azərbaycan vətəndaşları, hətta dogma Laçından didərgin düşərək, Azərbaycanımızın başqa bölgələrində dünyaya göz açmış və Laçını yuxusunda görə bilməyən ovladları, Məhəbbət Kazımovun "LAÇINIM, LAÇINIM, VƏTƏNİM MƏNİM" fəlsəfi mahnısı ilə, məktəbi ilə heç bir müəllimin, heç bir alimin öyrədə bilməyəcəyi bir sevgini, Vətən sevgisini elə ustalıqla, məlahətli səsi il həznlə, qüssə ilə, kədərlə kükrəyərək anlatmışdır ki, Məhəbbəti dinləyən, o dərsə qulaq asan bütün auditoriyaya Vətən sevgisini elə aşılamışdır ki, Vətən sevgisi anlamını heç vaxt unutmadan Laçını elə tanımışlar, elə sevmişlər ki, bəlkə də atalarının, babalarının Laçında keçirtdikləri, gördükləri, eşitdikləri qəhrəman kürd xalqının qəhrəman oğulları Qaçaq Nəbidən,Sultan Bəydən, Xosrov Bəydən, babalarının at oynatdıqları oylaqlardan, laçının sıldırım qayalarindan, ayaq dəyməz, əl çatmaz qarlı dağlarından danışsalar da Məhəbbət Kazımovun " LAÇINIM, LAÇINIM, VƏTƏNİM MƏNİM" fəlsəfi mahnısı ilə, məktəbi ilə onlara təsir edə bilməzdilər. Məhəbbət Kazimov LAÇINIM, LAÇINIM, LAÇINIM deyə deyə, Laçın həsrəti ilə nalə çəkə-çəkə, inildəyən əvəzsiz səsə malik olan, xalqın sevimlisi, gözəl müğənni Məhəbbət Kazımov Vətən-Laçın həsrəti ilə sevərlərinin ürəyini ölümü ilə közərdərək dünyasını dəyişdi. Məhəbbət Laçın həsrəti ilə dünyasını dəyişdi, Laçın Məhəbbətsiz qaldı. Bəli, Məhəbbəti sevənlər, Məhəbbət Kazımovun "LAÇINIM, LAÇINIM, VƏTƏNİM MƏNİM" fəlsəfi mahnısı ilə, məktəbi ilə qidalananlar, dərs alanlar onun dəfnində iştirak etdilər. O, ölümü ilə də xalqı birləşdirdi. Neçə-neçə küsülülər onun dəfnində barışdılar və Məhəbbətin yoxluğuna birgə fəryad edərək göz yaşı tökdülər. Bəli, Məhəbbət Kazımov öz mahnılarının sədaları altında, onu sevənlərin çiynində son mənzilə yola salındı. Allah qəni qəni rəhmət etsin, yeri cənnətlik olsun. Yaxınlarının başı sağ olsun, Allah səbr versin. Qoy xalqımız Məhəbbətin dəfn mərasimindəki kimi, umu-küsünü atıb hər zaman birgə olsunlar.

***Tahir Süleyman***

# LAÇINIM DEYƏN DİLİMİZİN BİRİ DƏ SUSDU!!!

Torpaq, yurd oğulları ilə boy atır böyüyür, elə oğulları ilə də birlikdə kiçilir, əzilir, asılır, əsr düşür, güllələnir.

Laçının, Kəlbəcərin-ümumilikdə Qarabağın işğalından sonra onlarla oğul



və qızlarımız elə bu torpaqlara dönüşsüzlüyün qurbanı oldu, əsri oldu, şəhidi oldu. İllərin üstünə il gəldikcə o torpaqlarda şaxələnən, qol-budaq atan, ədəbiyyat, musiqi ağacımız qol-qol, budaq-budaq kəsildi. Şamil Əsgəriylə, Ağa Laçınlısı ilə, Məhəbbəti ilə daha adını



çəkmədiyim neçə sənətkarın ölmü ilə qol-budaq edildi zavallı yurdumun yurdsuz, didərgin, kimsəsiz övladları.

Hər bir itkisiylə bir boy kiçilən Laçınımız, Qubadlımız, Zəngilanımız, Kəlbəcərimiz və neçə-neçə rayonlarımız Məhəbbətin ölmü ilə yenə bir boy kiçildi, yenə musiqimizin bir şax qolu kəsildi. Sarı Aşığı, Hüseyin Kürdoğlusu, Ağa Laçınlısı ilə dədələşən, zirvələşən "Laçınım" elə bu duaharın narahat ruhu ilə beli bükülmüşdü. Bu gün isə Məhəbbət itkisi ilə Laçının beli bir az da büküldü. Gəncliyi o yurdlara bağlayan bir mənəvi körpü də od tutub yandı. Laçına, Qarabağa səsləyən nəğmə dilimizin, musiqi dilimizin biri də susdu.

Onunla ilk və son görüşümü heç vaxt unuda bilmirəm. Onu ilk dəfə acı və həsrət dolu "Laçınım"ı ilə tanıdım. O zaman universitetdə oxuyurdum, dəlidolu, bir qədər də ərköyün halım vardı. Bir toy məclisində zalın qulaq batırıcı səsindən qaçaraq foyedə oturub dostlarımla mübahisə edirdim. Birdən qeyri-ixtiyari olaraq hamımız qalxıb zala keçdik. Bizi ora çəkən ruhi bir gerçəklik idimi, ya elə yurd yanğısı, vətən həsrəti idimi bilmədim...

Qapının ağzında heykəl kimi dayanıb Məhəbbətin içdən gələn yanğıyla oxuduğu "Laçınım" nəgməsini dinləyirdim. Musiqi bitdi, ama mən, hələ də acı və həsrət dolu, yanğılı sehrın əsarətində idim. Doluxmuş, kövrək bir halda yaxınlaşıb, sanki günah etmiş kimi əl uzatdım. Çox qısa bir dialoqumuz oldu. Bu mənim onunla ilk və son görüşüm idi. Bir daha görüşə bilmədik. Ancaq bu görüşdən sonra, o qısa görüşün şirinliyini və o zamanlar gəncliyimin yenilməz bir ruhu olsa belə, nə qədər aciz olduğumu anladığım məqamı unuda bilmədim.

Məhəbbət təkcə musiqimizin itkisi olmadı. Məhəbbət, Laçının qış yataqlarında qazma daxmada yaşayan və onun "Laçınımı" ilə təsəlli alan bir qocanın itkisidir. Məhəbbət, uçuq-sökük qaçqın məktəbində yazısını dizinin üstündə yazan bir Laçınlı məktəblinin itkisidi. Məhəbbət, hər şeylə təmin olunmuş, yalnız "Laçınım" la o yurdu yuvanı xatırlayan bir zəngin zavvalının itkisidi. Bir sözlə Məhəbbət musiqimizin deyil, təsəllimizin, tarixi yadaşımızın, yurdyuvamızın, doğma Laçınının, Çor-



manın, Qarakeşişin, Əriklinin, Ağbulağın, Mişninin, Minkəndin, Kamalının, Çıraqlının, daha adını çəkmədiyim neçə-neçə Laçın kəndlərinin hər bir ailəsinin, hər bir "vətən" deyən dilin itkisidi, ağrısıdır. Məhəbət, o yerlərdən gətirdiyimiz, mərdliyin, cəsarətin, insanpərvərliyin itkisidir.

"Elnən gələn qara günə təsəlli tez tapılar "- deyib bizim atalar. Amma bu itki bir elin-obanın, bir ölkənin itkisi ilə



yanaşı fərdlərin qəbul etdiyi, öz baxış bucağına sığdırdığı və öz "mən" gözləri ilə görüb dəyərləndirdiyi, qəbul etdiyi şəxsi dərdi, şəxsi itkisidi. Bir doğmasının, əmisinin, dayısının qardaşının itkisidi.

Hərdən düşünürəm, bəlkə də onu Məhəbət edən, musiqisi ilə yanaşı o böyük mənəvi dünyası, yüzlərlə müğənisi olan ekranlarımızda barmaqla sayılan Kişilərdən biri olmasıydı. Heç kimə sir deyil ki, onda sənətindən də yüksəkdə dayanan bir kişi ləyaqəti, cəsarəti vardı.

Ömrünü Azərbaycan musiqisinə həsr edən Məhəbbətə xalq məhəbbəti tükənmədi və bu gündən sonrada tükənməyəcək. Minlərin könüllü olaraq gəldiyi dəfn mərasimində ona olan tükənməz sevginin bir göstəricisi idi. Bu yazını yazanda onun televizyalarımızın birində sonuncu dəfə oxuduğu "Mirzə Hüseyin Seygahın" dinləyirdim. Səsindəki hüzün, ağrı mənə o qədər sirayət etdi ki xeyli lal dayanıb özümü inandırmağa çalışdım ki, bəli o daha aramızda yoxdu.

Bəli, o bir daha yuxularda gördüyü Laçına gedə bilməyəcək. Amma mən əminəm ki o cismən o torpaqlara dönməsədə ruhu indi həsrətiylə alışdığı Laçının qan çilənən səmasında Sarı Aşıq, Ağa Laçınlı, Hüseyin Kürdoğlu kimi sənətkarların, şairlərin, Soltan Bəyin, Xosrov Bəyin, Kamil Nəsibov kimi qəhrəmanların ruhuyla bir məqamdadır...

Ruhumuz o yerlərdə görüşənədək, ey xalqın Məhəbbəti!!!

***Nofəl Ədalət***

# KÜRD ƏDİBLƏRİ HAQQINDA ARAŞDIRMALAR

## Əbdurrəhman Həjarın yaradıcılığına qısa bir baxış

Dünya ədəbiyyatında çox az yaradıcı şəxsiyyət tapılar ki, öz milli psixologiyasını, xalqının yaşam tərzini əsərlərində əks etdirməsin. Böyük mütəfəkkirlər daim ümumbəşəri ideyalarla yanaşı xalqının sivil, demokratik və azad yaşamasını da diqqət mərkəzində saxlamış və bu istiqamətdədə mübarizələrini aparmışlar.

Bu qəbil mütəfəkkirlərdən biri 20-ci yüzildə şərq ədəbiyyatına meteor kimi daxil olan, milli və azad fikirlərinə görə daim təqib olunan, ömrünü sürgünlərdə yaşayan böyük kürd şairi Əbdərrəhman Şərəfkəndi Həjardır.

Həjar dünyavi baxışı olan, milli və dünyavi fikirlərin məğzinə dayanan, ondan qaynaqlanan, hər iki baxışı özündə əks etdirən bir sənətkardır. Onun əsərləri nə qədər millidirsə, bir o qədər də dünyavidir və ya nə qədər dünyavidirsə, bir o qədər də millidir.

Həjar ömrünü sürgünlərdə, həbslərdə keçirsə də yaradıcılıq istiqamətini dəyişməmiş, daha da cəsarətlə əsərlərini qələmə almış və acı gerçəklikləri söyləmiş, arzularını dilə gətirmişdir. Şairin 1957-ci ildə Suriyada mühacirətdə qələmə aldığı "Mən və bülbül" poemasında söylədiyi aşağıdakı fikirlər onun nə qədər mübariz bir şəxsiyyət olduğunu ortaya qoyur:

***Tikanlı tikəyəm, məni yeyənin***  
***Gözündən çıxaram açıq-aşkara.***  
***Qanıma susayıb qan eyləyənin,***  
***Bir gün taleyini eylərəm qara.***  
**və yaxud**  
***Tülküyə döndərdim pələngi,şiri,***  
***İndi tülkülərmi yeyəcək məni?***

Artıq bu poemanı oxuyanda şairin hansı mubarizə meydanında olduğu göz önündə sərgilənir.

Vətən hər bir sənətkarın dilində müqəddəs bir məkandır. Hər bir sənətkar onu vəsf etməklə, söz gülüstanının min rəg calarından naxış vurub bəzəməklə vətən sevgisini dilə gətirir. Hajarda "Vətənim Kürdüstan" deyərək söləyir:

***Cahan olsa bir gözəllik ağacı,***  
***Hər diyarın gövdə budaq sanaram.***  
***Bu ağacın başındakı gül tacı***  
***Sənsən, - deyib eşqin ilə yanaram.***

Heç bir rəsmi məktəbdə təhsil almayan, Rza şahın hakimyyəti illərində İranda qeyri dildə şeir yazmaq qadağan olunduğu bir vaxtda doğma Kürd dilində möhtəşəm əsərlər yaradan Hajar, həmçinin maarifçi idealları ilə də seçilir. Xatırladım ki, Həjar Ərəb və Fars dillərində mükəmməl bilsə də əsasən Kürd dilində yazıb yaratmışdır.

Həjar elmin, siyasi mübarizənin önəmli olduğunu göstərməklə yanaşı, kortəbii inqlabın deyil, savadlı idarəçiliyin önəmini açıq şəkildə göstərirdi. Müəllif "Laylay" adlı mənzuməsində azad yaşamanın yolunu bu cür dəyərləndirir və təbliğ edir:

***İstəmirsən əgər yadlara olasan qul,***  
***Azadlığın yolunu sənə göstərim, oğul.***  
***Günün qara keçsə də, əzizim, get məktəbə.***  
***Təhsilsiz başər çətin yetər mətləbə.***

Təhsilsiz insanın bəlalarını öncədən görən, yalnız atası Hacı Molla Məhəmməddən dini təhsil alan Hajar böyük bir pedoqoq, əvəzsiz müəllim olduğu da ortadadır.

Həjar kimi şəxsiyyətlər dünyaya az-az gəlir ki, onları da zaman doğru anlaya bilmir. Lakin onlar nə qədər əzab içində yaşasalarda öz haqq yollarından dönmürlər.

Milli adət-ənənələri əks etdirən şeirləri, poema və pyesləri bir bədii əsər olmaqla yanaşı fundamental bir tədqiqat əsəridir. Kürd xalqının milli etnoqrafiyası-adət-ənənələri, yaşam tərzləri, mərasimləri bu əsərlərdə orijinal bir şəkildə



sərgilənir.

Şairin bu qəbil əsərlərini humanitar elmlərin müxtəlif sahələrinə aid etmək olar. Burada, tarix, ədəbiyyat, incəsənət-musiqi və.s. sahələrin bədii ifadəsi içində, elmi tədqiqini də görürük. Müəllif şərq və qərb ictimai fikirlərinin müsbət dəyərlərindən də yan keçmir, yaradıcılığında onları da bədii bir dildə ustalıqla əks etdirir. Həjar söz boyası ilə rəsm cızan unikal şəxsiyyətdir. Şərq ədəbiyyatına nəzər yetirsək yallı rəqsini tərənnüm etdən və onun incəliyini sərgiləyən onlarla sənətkar görə bilərik. Lakin, əminliklə deyə bilərəm ki, bu sənətkarların heç biri yallı rəqsini Həjar qədər incəliklə təsvir edə bilməyib. Azərbaycanda mühacir ömrü yaşamış tədqiqatçı alim Rəhim Qazinin təbirincə desək "Yallı heç bir sənətkar tərəfindən Həjar qədər canlı və incəliklə göstərilməyib"

***

İnsanı daima öz ağuşunda saxlayan bir hiss mövcuddur ki, ona hər bir fərd ehtiyac duyur. Bu hissin doğurduğu sevinci də, kədəri də ömrü boyu şirin xatirə kimi qoruyur. Adi insanlardan fərqli olaraq, şairlər bu hissin təzahürünü poeziyaya gətirir və bu sirli-sehirli dünyanın möcüzələrini sözün möcüzəli qanadı ilə aca bilir.

Nəzərə alsaq ki, məhəbbət, sevgi adlandırdığımız hiss cinsi-heyvani hisslərdən doğulmur, onun başlıca mayası təmiz və pak niyyətdən yoğrulub, onda məhəbbət poeziyasının da nurdan və paklıqdan doğulduğunu qəbul etmiş olarıq. Bu baxımdan kürd ədəbiyyatının görkəmli siması olan Həjar poeziyasını insanlıq mayası adlandırmaq olar.

***Gəl yenə çəmənin seyrinə çıxaq,***  
***Gözümüz qəlbimiz danışsın ancaq.***  
***Bizi görən olar - demə, sevgilim.***  
***Dünyada sevilmək sevmək qalacaq.***

Həjarın şeirlərindəki orijinallıq şairin qəlb dünyasını tam açıqlığı ilə əks etdirir. Şair heç nədən çəkinməyərək sevgilisi qarşısında hər şeyini qurban verməyə hazır dayanır:

***Ey bədirlənmiş hilal, baxma***  
***yaşın on dörddü,***  
***Olaram gözlərinə min dəfə***  
***qurban doymaz.***

Şairin lirik şeirlərində bir ağrı, həsrət sezilməkdədir, həsrət günəşi parlamaqdadır. Hər bir şairin qəlbinə doğma olan hicran ağrısı, sanki Həjarın yaradıcılığında daha çox qol-qanad açıb. Rübailərinin böyük əksəriyyətində hicran yanğısı qabarıq şəkildə görünməkdədir.

***Üzündən utanar bağların gülü,***  
***Bənövşə dayanır boynu bükülü,***  
***Dilim çox arzular dil busasini,***  
***Fəqət tükənmir hicran nisgili***  
***  
***Göz dikdim yollara gözüm göyərdi***  
***Kainat elə bil sükuta daldı,***  
***Üfüqdə bir ulduz titrədi birdən,***  
***Onun da qəlbini min həsrət aldı.***

Həjar sevdiyi qadını ilahiləşdirməsədə, onun qarşısında aciz olduğunu etiraf edir. Şairin bu etirafı acizanəlikdən deyil, o, böyük bir gözəlliyin vəsfini qəlbimizdə canlandırır.

***Dilim dodağının vəsfində aciz...***  
**və yaxud**  
***Acizəm yanağın vəsfində aciz...***

Şair vəsf etdiyi gözəli sonuncu məqama qədər vəsf edir ki, bundan o yana vəsf etməyin qarşısında acizdir.

Şairin lirik şeirlərindəki bədii bənzətmələrin bir qismi xalq deyimlərindən gəlsə də, bu bənzətmələr Həjar qələmində daha orijinal şəkil alır. Bu da söylənilmiş fikirlərin təkrarı deyil, yeni deyim tərzi kimi ortaya çıxır.

***Duz səpdi yarama, dodağı duzlu,***  
***Yaralı buz istər, ürəyi buzlu.***

Beytin hər iki misrasının birinci tərəfində işlənən "duz səpdi yarama", "Yaralı buz istər" məcazi xalq deyimləri; ikinci tərəfdə işlədilən dodağı duzlu", "Ürəyi buzlu" məcazları ilə yeni məzmun qazanır. Bu da şairin təxəyyülündən qopan, yeni məna, məzmun daşıyan kamil misralardır.

Sevgisiz şair sözü, dil açmayan körpəyə bənzər ki, onu nə anlamaq, nə də kimlərəsə anlatmaq olur. Məhəbbət lirikası tanrının insana bəxş etdiyi, insan üçün ilahi nemət olan sevginin dilidir.

Bunun əzabları nə qədər çox olsa şair ilhamına o qədər işıq salar. Bu səbəbdəndir ki, Həjar şeiri yenilməzliyi ilə seçilir.

Uzun illər sürgündə, vətənindən uzaq yaşayan şairin ürək dili ilə qələmə aldığı əsərləri hicran ağrısına, onun əzablarına sinə gərir. "Əqidəni edam etmək olmaz" deyən bu bəşəri sənətkar, ölməz söz ustadı bəşəriyyətin mayası olan sevginin də edamını mümkünsüz sayır.

***Kirpiyin ləşkərin nizamla gəldi,***  
***Könül qarətinə ilhamla gəldi,***  
***Sevindim yarına qəsd eləyirsən***  
***Gözümdən dup-duru bir damla gəldi.***



**Səhifəni hazırladı: Nofəl Ədalət**



## Yunus Rauf Dıldari

Çox erkən dünyasını dəyişən, buna baxmayaraq önəmli əsərləri ilə kürd ədəbiyyatında yeri olan Yunus Rauf 20 fevral 1918-ci ildə Şərqi Kürdüstanın Köysancaq şəhərində dünyaya gəlib. İbtidai təhsilini Ronyada, orta məktəbi Həvlerdə bitirən Yunus Rauf Təhsilini Bağdad unveristetinin hüquq fakültəsində davam etdirmişdir.

Unveristeti bitirdikdən sonra İraqın müxtəlif şəhərlərində ixtisası üzrə çalışan Yunus Rauf bu dövrdə kürd ədəbiyyatı ilə yaxından tanış olur. Hacı Qədiri Koyi, Bekəs, Pirmerd, Kurdi və s. kimi önəmli yazarların yaradıcılığını dərindən mənimsəyən şairin ilk şeiri 1935-ci ildə Dildari təxəllüsü ilə "Ronabi" dərgisində nəşr edilir.

O dövrdə İraqda başlayan etiraz dalğasına qoşulan Yunus Rauf Dildari "Hiva" partiyasının yaradılmasında yaxından iştirak edir. 1940-cı ildə təhsilini davam etdirən Dildari siyasi fəaliyyətini də genişləndirir.

Qazi Məhəmmədin rəhbərliyi ilə 1946-cı ildə mərkəzi Mahabbat olmaqla elan edilən Kürdüstan Demokratik Respubilikasının dövlət himninin müəllifi olması, Dildarini kürd ictimai və siyasi fikirində, eləcə də ümumdünya kürdləri arasında daha sevilən edirdi.

Bu himn hələ də kürdlər arasında ulusal marş olaraq qəbul edilir və hal-hazırda şimali İraq Kürdüstan Muxtariyyatının rəsmi himnidir.

Ömrünün yarısını kürdlərin azadlıq ideyalarına həsr edən və hər cür mübarizə yolunu sınayan Yunus Rauf Dıldari ömrünün bahar çağında 1948-ci ildə 30 yaşında əbədiyyətə qovuşur. Özündən sonra qalan ideyaları və əsərləri, xüsusi ilə haqqında söz açdığımız "Ey rəqib" marşı onun əbədi yaşarlığının əsasını təşkil edir.

# 1905-06-cı illərdə erməni-müsəlman davasında kürd xalqının rolu

Əvvəli ötən sayımızda

### LALAYEVİN BAKI ŞƏHƏRİNDƏ TÖRƏTDİYİ ƏHVALAT

Bakı şəhərində erməni milliyyətinə mənsub olan Lalayev soyadlı bir nəfər vardı, karxana sahibi idi. Bu erməni vardövlətinin çoxluğundan özünü hədsiz dərəcədə qudurğan aparırdı. Belə ki, ermənilərin məclisində və ya yığıncaqlarında müsəlman tayfasının adı çəkiləndə o, ermənilərə müraciətlə deyirdi ki, «sizə ar olsun, müsəlmanın adı gələndə titrəyirsiniz, müsəlmanlar kimdir ki, onlardan belə qorxursunuz?

Mən müsəlmanları bir milçək və qarışqa hesab edirəm. Onlar od olsalar da özlərini yandıra bilməzlər».

Sabunçulu Ağa Rəzi öldürüldükdən sonra Bakıda baş verən iğtişaş zamanı hər tərəfi tüfəng və tapança gurultusu və müsəlman igidlərinin nərəsi və «ya Əli» sədası bürüyərkən həmin Lalayev qabaqcadan evində topladığı döyüş silahlarını işə saldı. Onun yaratmış olduğu 20-30 nəfərdən ibarət erməni quldur dəstəsini silahlandıraraq müsəlmanları qırmaq üçün onlara tərəf yönəltdi. Lalayevin əmri ilə evinin ətrafında olan bütün qapı-darvazalar bağlandıqdan sonra həmin quldur dəstəsinin üzvləri evin pəncərə, qapı və bacaları arxasında mövqe tutaraq, küçədən gəlib-keçən müsəlmanları atəşə tutdular. Bunun nəticəsində gəliş-gediş dayandı. Həmin gün bizim qarabağlı Tağı bəy Şirin bəy oğlunu qardaşı uşaqları evlərinə qonaq çağırmışdılar. Tağı bəy Şirin bəy oğlu faytonla həmin küçədən keçərkən Lalayevin evindən həmin quldurlar tərəfindən atəşə tutularaq öldürülmüş, faytonçu isə bir neçə yerindən ağır yaralanmışdı. Bu vaxt Bakı əhalisi arasında böyük şöhrət tapmış Ağakərim adlı bir nəfər mərd və igid oğlan öz silahlı dəstəsi ilə Bakının küçələrində cövlan edərək azərbaycanlıların həyatına qəsd edən erməni quldurlarını cəhənnəmə vasil edirdi. Nəhayət, onlar gəlib Lalayevin evi yerləşən küçəyə çatdılar. Ağakərim öz dəstəsini iki yerə bölüb birinə divarlar arxasından Lalayevin evini gülləyə tutmasını əmr edir, digər hissəsinə isə külüng-balta və lomla evin darvazasını açmaq əmrini verdi. Üçüncü dəstə güllə yağışının altında divarların dibi ilə Lalayevin evinin darvazasına yaxınlaşıb, lom və külünglə darvazanı dağıtmağa başladılar. Onlar əllərindəki alətlərlə darvazanı parça-parça edib yerə saldılar. Ağakərim və onun dəstəsi qəzəblənmiş aslan kimi «ya Əli!» sədası altında hücum çəkib içəri doldular. Camaat tüfənglərin gurultusundan və igidlərin nərəsindən dəhşətə gəldi. Lalayevin evində olan quldurlar karıxıb mat qaldılar. Onlar tüfənglərini atıb qaçmaq istəyərkən Ağakərimin dəstəsi onları bir-bir qətlə yetirdi və evdə gizlənənləri də çıxarıb, cəzalarına çatdırdılar. Bundan sonra Ağakərim bir neçə nəfərlə Lalayevin otağına daxil oldu. Ağakərim irəli gəlib dedi:

— Allah saxlasın, keyfin neçədir? O müsəlmanları ki, sən milçək və qarışqa hesab edirdin, indi onların hər biri şirinərə dönüb qulluğuna gəliblər.

Lalayev söyüd ağacının yarpağı kimi tir-tir titrəyərək dedi:

— Qələt eləmişəm, məni bağışlayın. Bu gün bəxşiş günüdür, öz zəhmətinizin əvəzində nə qədər pul lazımdır, götürün. Sandıqda kupon kağızları var. Götürün, aparın, xəzinə və bankdan pul alın. Uşaqların arasında bölün.

Ağakərim dedi ki, biz buraya puldan ötrü gəlməmişik. Bu millət davasıdır. Milləti müdafiə etməkdən ötrü biz can qoymuşuq və bu məqsədlə də buraya gəlmişik. Millət yolunda biz pula satılanlardan deyilik.

Bu vaxt Lalayevin övrəti gəlib özünü ərinin üstünə saldı və ağlaya-ağlaya Ağakərimə minnət elədi ki, siz gəlin bunu öldürməyin. Sizə nə qədər pul lazımdır, durum gətirim. Ağakərim övrətə dedi ki, bizə pul lazım deyil. Sənin bu kişin gərək öldürülə. Sənin kişin çox qürrələnib erməni məclislərində deyirmiş ki, müsəlmanlar mənim yanımda bir milçəkdir. Yarım milyon pul qoyub, onların hamısını məhv edərəm.

**Ə L A V Ə:** Belə deyirlər ki, bu halətdə Lalayev Hacı Zeynalabdin Tağıyevin yanına bir adam göndərib, özünün xilas edilməsini xahiş eləyir. Hacı buyurur ki, bu, mənə dəxli olmayan işdir. Baş verən hadisə isə millət məsələsidir, mən nə deyə bilərəm? Xülasə, Ağakərim nə qədər çalışdı ki, övrət Lalayevdən aralansın, mümkün olmadı. Qəflətən camaatın içərisindən naməlum bir şəxs övrəti güllə ilə vurub öldürdü. Ağakərim onu məzəmmət etdi. Sonra isə Lalayevə bir neçə güllə vurub öldürdü.

Lalayev qətlə yetirildikdən sonra hamı evdən bayıra çıxdı. Evin hər yanından üstünə neft çiləyib, od vurdular. Ev böyük partlayışlarla yanmağa başladı. Bu da onu göstərdi ki, Lalayevin evinin zirzəmiləri yeşik-yeşik hərbi sursat və partlayıcı maddələrlə dolu imiş.

Evdən qalxan gurultunun və partlayışın səsindən yaxında olan adamlar qulaqlarını tutaraq hərə bir tərəfə qaçırdı. Ev sursatlarla birlikdə yanıb külə döndü. Deyilənə görə, bir ay sərasər evdən tüstü kəsilmədi.

Belə deyirlər ki, Lalayevin xoşsifət gözəl bir qızı varmış. Həmin qıza heç kəs toxunmayıb, mehribanlıq göstərib və gətirib Hacı Zeynalabdinin qızlar məktəbində yaxşı əmin adamlara tapşırıblar.

**Ə L A V Ə:** Bakıda qırğın daha da şiddətlənərkən erməni tayfasından silahlı bir dəstə şəhərin küçələrində dolaşaraq hambalları və əlsiz-ayaqsız qocaları tutub öldürürdü. Həmin vaxt Bakının din xadimlərindən birisi öz qonşularında olan övrət və uşaqları, eləcə də qocaları öz evinə cəm edib, darvazanı bağlamışdı. Bundan xəbər tutan erməni dəstəsi mollanın evinin yanına çatarkən belə qərara gəldilər ki, Lalayevin əvəzini çıxmaq üçün bu mollanın evindəki övrət və uşaqları öldürüb, evinə od vurub yandırsınlar. Bu əzm ilə evin darvazasını sındırıb içəri girmək istəyərkən, o biri tərəfdən ləzgi tayfasından bir dəstə onların üstünə gəldi. Onlar erməniləri öldürüb, mollanın evində olan övrət-uşaqları erməni şərindən xilas etdilər. Ondan sonra ləzgilər xəncərlərini erməni qanından pak edib üz tutdular göy səmtinə və ərz elədilər ki, «Ya Məhəmməd, atamız-anamız sənə fəda olsun, sənin dininin düşmənlərini məhv edib, cəhənnəmə vasil etdik. Bizdən razı oldunmu?» Xülasə, həmin müdafiə günündə ləzgi tayfasının Bakı müsəlmanlarına köməyi çox oldu. Həmin gün onlardan beş nəfər şəhid oldu.

### ERMƏNİLƏRİN BAKI QUBERNATORUNU ÖLDÜRMƏSİ

Bakıda baş verən bu qırğından bir az sonra şəhər qubernatoru faytonda küçə ilə gedərkən bir neçə nəfər erməni faytonun üzərinə hücuma keçərək bomba atıb partlatmışlar. Bombalar faytonun yanında yerə dəyib partlayaraq faytonu darmadağın etmişdir. Partlayışdan ağır yaralar alan qubernator və atlar ordaca ölmüşdür.

Quldur ermənilərin biri tutulmuş, digərləri isə qaçıb gizlənmişlər. Sonra aparılan axtarış nəticəsində bu cinayətdə iştirak edən daha dörd erməni həbsə alınmışdır.

Deyilənə görə, həmin beş nəfər cani erməni dar ağacından asılaraq cəzalarına çatmışlar. Bu əhvalatdan sonra bir müddət sakitlik oldu. Lakin ayrı-ayrı erməni fitnəkarları öz fitnə-fəsadından əl çəkməyərək, gizli əllərinə düşən müsəlmanları öldürürdülər. Bu növ ədavətlər və xəyanətlər ara-sıra hər iki tərəfdən baş verirdi.

### 1905-ci İLDƏ İRƏVAN ŞƏHƏRİNDƏ BAŞ VERƏN ERMƏNİ—MÜSƏLMAN ƏHVALATI

Hansı vilayətdə ki, İrəvan ermənilərindən bir neçə nəfər tapılırdı, mütləq orda bir iğtişaş baş verirdi. Bu İrəvan erməniləri çox xudpəsənd, kinli və cinayətkardılar.

İrəvan şəhərinin müsəlmanlar yaşayan 80 evdən ibarət məhəlləsinin ermənilərlə iğtişaşı baş verib. Bu iğtişaşın başlanmasına səbəb olan ermənilər həmin məhəllədə müsəlmanların imarətlərini gülləbaran etməyə başladılar. Ermənilərə nisbətən müsəlmanların bu məhəllədə az olmasına baxmayaraq, ermənilərə qarşı müqavimətdə mətanətlə dayandılar və onlara böyük zərbələr endirdilər. İki tərəfdən üç gecə-gündüz davam edən güllə yağışının altında qırx nəfər erməni, iki nəfər isə müsəlmanlardan öldürüldü. Üç gündən sonra güllələri tükəndiyinə görə gecə vaxtı müsəlmanlar həmin məhəllədən qaçmalı oldular.

Əhvalatdan xəbərdar olan ermənilər müsəlmanların evlərinə doluşub, onların mal- dövlətini qarət etməyə başladılar. Fürsət tapıb qaça bilməyən beş nəfər övrət və üç nəfər uşaq bir evin küncünə qısılaraq qorxudan titrəyə-titrəyə ağlayırdılar. Əllərinə düşən kitablara və "Qurani-Kərim"ə od vurub yandırdılar. Ermənilərin qoca qadın və kişilərə, eləcə də uşaqlara etdikləri zülmü qələmə almaq çox çətindir.

Ardı var

*Səhifəni hazırladı: Tahir Süleyman*



Mir Möhsün Nəvvab










Nəriman Əyyub

## RÜBAİLƏR

*(Əvvəli ötən saylarımızda)*

Hər zahiri göyçək olammaz gözəl,
Batili də gözəl olmalı əzəl.
Zahiri gözəlin batili çirkin,
Olanda başına tez düşər xəzəl.
***
Sədaqətə xəyanət eyləmə heç an,
Vara xəyanətdən ağırdır inan.
Heç nəyə xəyanət etməyən insan,
Demək saf doğulub sağlam anadan
***
Dost odur ki eybi üzünə desin,
Onunla birlikdə saf çörək yesin.
Üzdə dost, daldada qeybət eyləsə,
Elə dostluq onun başına dəysin.
***
Mümkün olmayam heç arzu etmə,
Tanımadığın o yollara getmə.
Nakişi, nanəcib düzələn deyil,
Onlardan heç zaman yaxşılıq güdmə.
***
Həmişə ölməyi tez yadına sal,
Ölmüşlərdən daim gündə ibrət al.
Məzarstanlığın yanından keçsən,
Oranı fikirləş, tez xəyala dal.
***
Deyərsə eybini, dostuna inan,
Gizlətsə eybini, ilandır ilan.
Dostisə dostuna doğrunu desin,
Nə yalan danışma, nə də ki utan.
***
Zülümkar heç zaman cəzasız qalmaz,
Nə də ki xalqından mükafat almaz.
Xalqının dərdinə yan, onu eşit,
Kişilik eyləyən saralmaz-solmaz.
***
Gül dərsən tikandan çəkinmə heç an,
İlanı da yaradıbdır Yaradan.
Layiqli əllərə tikanlar batmaz,
Tikanı götürür Xudam aradan.
***
Qadına ən vacib həya, ismətdir,
Kimlərdə varsa da böyük sərvətdir.
Həyası, isməti olmayan kəsin,
Daimi üzünə gələn töhmətdir.
***
İnsanları sevə bilməyən insan,
Həqiqəti sevə biləmməz inan.
İnsanı sevməyən insan deyildir,
Tək fərqi ondadır danışan heyvan.
***
Söz var ki daimi kəsdirər başı,
Söz də var yerində kəsər savaşı.
Sözü də söz kimi demək yaxşıdır,
Söz var parçalayar qayanı-daşı.
***
Elə söz söyləmək gərəkdir ki sən,
Söyləyə biləsən onu yenidən.
Söylədiyin sözdən ziyan dəyməsin,
Ziyan dəysə başa düçar tezcə dən.
***
Hörmət eylə özün hörmətlə yaşa,
Vaxt gələndə ömür çatacaq başa.
Elə işlər gör ki xalq səni sevsin,
Nəin ki gedəndə tutsunlar daşa.
***
Lovğalığın sonu xəcalət olur,
Xəcalər olanlar saralır-solur.
Lovğalıq eyləmə, kişi tək yaşa,
